PARADIGMA, Xüsusi buraxılış, 2025, səh.65-77
https://doi.org/10.30546/30015.2025.4.038

# QARABAĞA BÖYÜK QAYIDIŞDA YENİ UĞURLAR

**R.B. Əsədova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
AMEA Tarix İnstitutu, Bakı, Azərbaycan
e-mail: renabeyler@gmail.com

**Xülasə.** İlham Əliyev Azərbaycan Respublikası Prezidenti seçildikdən dərhal sonra qaçqın və məcburi köçkünlərin çadır qəsəbələrdən, abad yaşayış məntəqələrinə köçürülüb yerləşdirilmələri üçün zəruri addımlar atdı. İkinci Qarabağ müharibəsində böyük qələbədən sonra isə Qarabağ və Şərqi Zəngəzurda azad edilmiş ərazilərin minalardan təmizlənməsi, yollar çəkilməsi, su və elektrik enerjisi təchizatı, yaşayış məntəqələri inşası və s. sahələr üzrə proqramlar sürətlə icra edilməyə başlandı. Təqdim edilmiş məqalədə böyük qələbədən sonrakı 5 il ərzində Qarabağa böyük qayıdışın uğurları araşdırılmışdır.

**Açar sözlər:** Çadır qəsəbələrin ləğv edilməsi, Qarabağ və Şərqi Zəngəzurda infrastruktur layihələri, Böyük qayıdışın başlanması, Ağalı kəndi, Füzuli şəhərinə və digər yaşayış məntəqələrinə qayıdış, ilk 5 ilin yekunları.

**Böyük qayıdışın ilk uğurları.** İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikası Prezidenti seçildikdən dərhal sonra Ermənistanın xarici havadarlarının hərtərəfli dəstəyi ilə Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi nəticəsində 1 milyondan çox qaçqın və məcburi köçkün olmuş vətəndaşların sosial problemlərinin həlli məsələsini dövlətin əsas məsələsi kimi ön plana çəkdi.

O, 2004-cü il iyunun 8-də Mingəçevirdə məcburi köçkünlər üçün salınmış qəsəbənin açılışı mərasimində nitqində qeyd etdi ki, "xalqımızın ümummilli lideri Heydər Əliyevin göstərişi ilə Azərbaycan Dövlət Neft Fondundan ilk xərclər, vəsaitlər yalnız qaçqınların, köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmişdir. Azərbaycanda imkan yaranan kimi, vəsait əldə edilən kimi ilk xərclər məhz bu istiqamətdə olmuşdur" [1, s.253].

İlham Əliyev bu çıxışında bütün qaçqın və məcburi köçkünlərin səbirsizliklə gözlədiyi müjdəni verdi: "Azərbaycanda bir dənə də çadır şəhər-ciyi qalmayacaq, ən çətin vəziyyətdə yaşayan soydaşlarımız gözəl şəraitlə təmin olunacaqlar" [Yenə orada, s.254]. O, qaçqın və məcburi köçkünlərin bütün sosial problemlərinin həlli, o cümlədən onların normal yaşayış evləri ilə təmin edilməsi məqsədi ilə 1 iyul 2004-cü il tarixli 298 saylı «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı» adlı xüsusi sənəd imzaladı. Həmin sənədin dərhal xə təxirəsalınmadan icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti 4 noyabr 2004-cü il 232 saylı qərarı ilə xüsusi tədbirlər planını təsdiq etdi [2, s.196].

Azərbycan Prezidentinin – çox qısa müddət ərzində ölkəmizdə bütün çadır şəhərcikləri ləğv olunacaq, onlar üçün yeni abad evlər tikiləcəkdir – vədi çox qısa müddətdə – cəmi dörd il ərzində həyata keçirdi: 2003-cü ildə Biləsuvarda 5, 2006-cı ildə Bərdə və Ağcabədidə 4, 2007-ci ildə isə Saatlı və Sabirabad rayonlarında 3 çadır şəhərciyi ləğv edildi. Bu müddət ərzində ölkəmizdə bütün çadır şəhərcikləri ləğv olundu, onlar üçün yeni abad evlər tikilib təhvil verildi. Bu nəhəng proqramın ardınca, nisbətən daha münasib şəraiti olan fin tipli qəsəbələrin ləğvinə başlanıldı. Ölkəmizin aran bölgələrində inşa edilmiş fin tipli 16 qəsəbədən də məcburi köçkünlərin yeni müasir daş evlərə köçürülməsi gerçəkləşdirildi. Fin tipli sonuncu qəsəbənin yerində 2018-ci ildə Füzuli köçkünləri üçün yeni müasir qəsəbə salındı. Prezident İlham Əliyev Füzuli rayonunun Horadiz şəhərində məcburi köçkünlər üçün salınan yeni qəsəbədə Füzuli rayon ictimaiyyətinin nümayəndələri və məcburi köçkünlər ilə görüşdə məmnunluqla bildirdi ki, "Bu gün 400 köçkün ailəsi üçün yeni salınmış qəsəbənin açılışını qeyd edirik. Gözəl qəsəbədir, bütün şərait yaradılıb. Məktəb, uşaq bağçası, tibb məntəqəsi, gözəl fərdi evlər tikilib, təbii ki, infrastruktur layihələri icra edilib, içməli su, qaz, elektrik xətləri çəkilib, yollar salınıb" [3].

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin gündəlik diqqət və qayğısı sayəsində, ilk növbədə Biləsuvar, Füzuli və Ağdam rayonlarının ərazisində 5081 ailədən ibarət 22 800 məcburi köçkün üçün bütün zəruri sosial-texniki infrastrukturu olan 20 abad qəsəbə salındı. 2020-ci ilə qədərki dövrdə də bu sahədə addımlar davam etdirildi. Qaçqın və məcburi köçkünlərin yaşayış vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə həyata keçirilən proqramlar sayəsində 300 minə qədər məcburi köçkün çadır şəhərciklərindən və yataqxanalardan köçürülərək yeni salınmış 116 abad qəsəbəyə və yeni inşa edilmiş minlərlə fərdi evə yerləşdirildi [4].

Ötən müddət ərzində məcburi köçkün ailələri mənzillərlə, fərdi evlərlə təmin olunmaqla yanaşı, onların digər yaşayış problemlərinin həlli istiqamətində də ardıcıl addımlar atıldı. Bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün 2016-cı ilə kimi 6,1 milyard manat vəsait xərcləndi. Bu zamana kimi məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 4 dəfə, kommunal xidmətlərə görə vəsaitin məbləği isə 4,5 dəfə artırıldı. Bu müddət ərzində 2 min nəfərdən çox məcburi köçkünün sahibkarlıq subyektinin investisiya layihələrinin maliyyələşdirilməsinə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 40 milyon manat güzəştli kredit ayrıldı. Nəticədə, 2016-cı ildə məcburi köçkünlər arasında yoxsulluq həddi 13 il əvvəlki 75 faizdən 12 faizə düşdü [3].

**Böyük qayıdışa böyük hazırlıq**. İkinci Qarabağ müharibəsində böyük qələbədən sonra erməni işğalından azad edilmiş ərazilərin böyük sürətlə bərpası və məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması üçün yeni nəhəng proqramlar həyata keçirilməsinə başlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2020-ci il tarixli sərəncamına əsasən işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin mərkəzləşdirilmiş qaydada, sistemli və operativ həlli üçün Əlaqələndirmə Qərargahı yaradılmışdır [5]. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyevin başçılıq etdiyi Əlaqələndirmə Qərargahının nəzdində müxtəlif sahələr üzrə işçi qrupları fəaliyyətə başlamışdır ki, onlara da yüksək vəzifəli dövlət məmurları rəhbərlik edirlər. Bütövlükdə Qərargahda çalışmaq üçün 55 dövlət müəssisəsindən 160 əməkdaş ezam olunmuşdur [6]. Bundan əlavə, konkret vəzifələrin həlli üçün uyğun texniki ekspertlər də cəlb edilmişlər.

Əlaqələndirmə Qərargahının nəzdində katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi və zəruri analitik-təşkilati dəstək göstərilməsi məqsədilə İdarələrarası Mərkəz yaradılmışdır. İdarələrarası Mərkəz çərçivəsində işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışı məsələləri, Şəhid ailələri və müharibə iştirakçılarının sosial müdafiəsi məsələləri, Elm, təhsil və mədəniyyət məsələləri, Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə məsələləri, Hərbi-mülki əlaqələndirmə məsələləri, Nəqliyyat, rabitə və yüksək texnologiyalar məsələləri, Şəhərsalma məsələləri, Ekoloji məsələlər, İqtisadi məsələlər, Enerji təminatı məsələləri, Kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadənin və rəqabət qabiliyyətli aqrar istehsalın təşkili imkanlarının araşdırılması məsələləri və Kommunikasiya məsələləri üzrə ümumilikdə 12 işçi qrupu fəaliyyət göstərir [7].

İşğaldan azad edilmiş ərazilərdə daşınmaz əmlak və infrastruktur obyektlərinin ilkin inventarlaşdırılmasının aparılması, məlumatların toplanması və idarə edilməsi məqsədilə istifadəyə verilmiş Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə 31 dövlət qurumu və təşkilatından 30-u qoşulmuşdur. Həmin qurum və təşkilatlara sistemdə işləməklə bağlı təlimlər keçirilməsi, 23 qurum tərəfindən məlumatların sistemə daxil edilməsi, digər aidiyyəti dövlət qurumları və təşkilatlarının da sistemə qoşulması istiqamətində işlərin davam etdirilməsi rəqəmsallaşma sahəsində yeni imkanlar yaratmışdır. Nəticədə, işğaldan azad edilmiş rayonların əhalisinə aid 700 minə yaxın vətəndaşlıq vəziyyəti akt qeydi qısa müddət ərzində bərpa olunmuşdur [8, s.100].

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılması bu proqramların operativ icrası üçün böyük əhəmiyyətə malik olmuşdur. Bu addım Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında daha

da möhkəmlənməyimiz, bölgənin sürətli inkişafına nail olmağımız baxımından çox mühümdür. İşğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili məqsədilə inzibati ərazi bölgüsünə uyğun olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar və Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin formalaşdırılması da olduqca mühüm məsələ sayılmalıdır. İşğaldan azad edilmiş ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmini və bu istiqamətdə bütün işlərin vahid proqram əsasında aparılması üçün ölkənin iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmışdır.

Azərbaycan İkinci Qarabağ müharibəsindən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda böyük bərpa və quruculuq işlərinə başlamışdır. Hazırda ölkəmizdə müasir dövrün ən böyük postmünaqişə bərpa proqramlarından biri icra edilir. Həm də bu zaman ən qabaqcıl təcrübə və ideyalar: “ağıllı şəhər”, yaşıl enerji, ətraf mühiti çirkləndirməmək, ekoloji menecment tətbiq edilir. Digər çox önəmli cəhət - bütün bərpa və quruculuq işlərini həm maliyyələşdirmək, həm də idarə etmək, əlaqələndirmək işini Azərbaycan təkbaşına icra edir. Qarabağ və Şərqi Zəngəzurda aparılan bütün yenidənqurma, bərpa və şəhərsalma işləri qabaqcıl urbanizasiya modellərinin tətbiqi ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir. İşğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdış Proqramı çərçivəsində insan kapitalının inkişafı sahəsində sosial xidmətlər şəbəkəsinin yaradılması və maddi-texniki bazasının gücləndirilməsi, doğma torpaqlarına qayıdan əhalinin məşğulluq imkanlarının artırılması, onların keyfiyyətli səhiyyə və təhsil xidmətləri ilə təmin edilməsi, mədəniyyət və idman obyektlərinin bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı işlər görülür. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və quruculuq işləri üçün Azərbaycan hökuməti 2021-ci ildə 2,2 milyard manat, 2022-ci ildə 3 milyard manat vəsait ayırmışdır [9].

Hazırda azad olunmuş ərazilərimizdə yol tikintisi sürətlə davam etdirilir. Eyni zamanda bölgənin rabitə infrastrukturu əsaslı şəkildə şaxələnir. Mobil rabitə, radio-televiziya yayımı, xüsusi radiorabitə, internet, poçt və s. təşkili istiqamətində mühüm işlər görülür. Eyni zamanda Ağalı kəndindən başlayan yaşayış məntəqələrinin tikintisi Baş Plana uyğun şəkildə aparılmaqdadır. Su, qaz, istilik infrastrukturunun yenidən qurulması da plana daxildir. Eyni zamanda dəmir yolu xətlərinin çəkilişi də sürətlə davam etməkdədir.

Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirmə və tikinti işlərinə 44 günlük müharibədən dərhal sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 noyabr 2020-ci il tarixli sərəncamına əsasən başlanılmışdır. Uzunluğu 47,1 km olan bu dəmir yolu

xəttinin 2025-ci il mayın 10-da Prezident İlham Əliyevin iştirakı ilə açılışı olmuşdur [10]. Horadiz-Ağbənd dəmir yolunun inşası da sürətlə davam etdirilməkdədir. Bu dəmir yolu xətti Zəngəzur dəhlizinin əsas nəqliyyat arteriyalarından biri kimi Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməklə yanaşı, Orta Dəhlizin yeni seqmenti olaraq Şərq-Qərb-Şərq üzrə yükdaşımalar üçün əlavə imkanlar yaradacaqdır. 2025-ci ilin avqust ayına kimi ümumi uzunluğu 110,4 km olan bu dəmir yolu xəttinin layihələndirilmə işlərinin 84 faizi, tikinti-quraşdırma işlərinin isə 67 faizi yekunlaşmış, 75,6 km (yan yollarla birlikdə 87 km) uzunluğunda olan hissəsində rels döşənməsi başa çatdırılmışdır [11].

Ümumilikdə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən Bərdə-Ağdam və Horadiz-Ağbənd dəmir yolu layihələrinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə müsbət iqtisadi təsirləri olacaqdır. Yeni dəmir yolu xətləri həm sərnişinlərin, həm də sənaye və kənd təsərrüfatı məhsullarının daha sürətli və sərfəli şəkildə daşınmasına imkan verəcək, bölgənin logistik potensialını əhəmiyyətli dərəcədə artıracaqdır.

İşğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafını sürətləndirmək, bu bölgələri yenidən iqtisadi dövriyyəyə cəlb etməklə regional inkişafda balansı təmin etmək və əhalinin rifah səviyyəsini yüksəltmək məqsədilə sahibkarlığın stimullaşdırılması, investisiyaların təşviqi, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün güzəşt və imtiyazların tətbiqi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətli bərpası və dayanıqlı inkişafı istiqamətində atılan strateji addımlar sırasında sənaye zonalarının yaradılması da mühüm yer tutur. Bu bölgələrdə dövlət dəstəyi ilə yaradılan sənaye və ixtisaslaşmış istehsal zonaları həmin ərazilərdə biznes mühitinin formalaşmasına, sahibkarlığın inkişafına və investisiya cəlbediciliyinin artmasına şərait yaratmaqdadır.

**Böyük qayıdışın yeni dalğası.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbirlər Planına uyğun olaraq 2023-cü ilin sonuna kimi 5 yaşayış məntəqəsinə – Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Laçın şəhərinə və həmin rayonun Zabux kəndinə, Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin köçürülməsi işlərinə başlanmışdır. 2023-cü ilin sonuna kimi bu yaşayış məntəqələrinə 1400-dən çox məcburi köçkün ailəsi köçürülüb yerləşdirilmişdir [12].

***Zəngilan rayonun qayıdış.*** Qaçqın və məcburi köçkün əhalinin azad edilmiş torpaqlarımıza qayıdışı Zəngilan rayonunun yenidən salınmış *Ağalı kəndinə* köçlə başlamışdır. İşğala qədər bu inzibati ərazi 3 kəndi əhatə edirdi. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154

nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda 161 ailə (675 nəfər) yaşayırdı. 2022-ci ildə bu kəndlərdən olan ailələrin ümumi sayı 352-yə, əhalinin sayı 1504 nəfərə çatmışdı. 2022-ci il iyulun 19-da Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçrülüməsinin birinci mərhələsinə start verildi. Məcburi köçkünlərin 10 ailədən ibarət ilk qrupu Abşeron rayonu Masazır qəsəbəsində yerləşən "Zəngilan şəhərciyindən" Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə öz doğma yurd-yuvalarına yola salındı. Ümumilikdə "Ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə 1-ci mərhələdə 41 ailənin, təxminən 200 nəfərin köçürüləcəyi və hər cür şəraitlə təmin olunacağı nəzərdə tutulmuşdur [13].

2023-cü il martin 3-də daha 10 ailə - 44 nəfər, oktyabrın 26-da 17 ailə - 95 nəfər, oktyabrın 28-də 25 ailə - 127 nəfər köçürülüb yerləşdirilmişdir. Bu ailələr Abşeron rayonunun Masazır qəsəbəsindən Zəngilan rayonunun yenidən salınmış Ağalı kəndinə yola salınmışdır. O zamanadək Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış ailələr bundan sonra doğma yurdda yaşamağa başlamışlar. Onlar ermənilərin işğal dövründə tamamilə dağıtıqları 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin sakinləridir. Evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları əsasında, şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma ilə aparılmışdır.

Bütövlükdə, 2025-ci il oktyabrın sonuna kimi Ağalı kənddə daimi məskunlaşdırılan ailələrin sayı 175-ə, əhalinin sayı 871 nəfərə çatmışdır [14]. Kəndə köçürülmə bundan sonra da davam etdiriləcəkdir.

***Füzuli şəhərinə qayıdış.*** 44 günlük İkinci Qarabağ müharibəsindəki böyük qələbədən dərhal sonra Füzuli şəhərinin bərpasına, yeni yaşayış məhəllələrinin inşasına başlanmış və 2023-cü ildən etibarən məcburi köçkünlərin doğma torpaqlarına böyük qayıdışının yeni dalğası gerçəkləşdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il mayın 5-də Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlini qoymuşdur. Füzuli şəhərinə 2023-cü il avqustun 18-də Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən *Füzuli şəhərinə* ilk köç karvanı yola salınmışdır. O zamana kimi Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 23 ailə - 90 nəfər doğma yurda ilk qayıdanlar olmuşlar.

Bu ilk köçün ardınca həmin il sentyabrın 7-də 25 ailə - 102 nəfər, sentyabrın 11-də 24 ailə - 92 nəfər, sentyabrın 15-də 25 ailə - 73 nəfər, oktyabrın 10-da 21 ailə - 88 nəfər, oktyabrın 11-də 22 ailə - 59 nəfər, oktyabrın 13-də 22 ailə - 62 nəfər, oktyabrın 14-də 28 ailə - 117 nəfər, noyabrın 23-də 25 ailə - 72 nəfər, noyabrın 24-də 25 ailə - 72 nəfər, noyabrın 27-də 25 ailə -

106 nəfər, dekabrın 7-də 25 ailə - 80 nəfər, dekabrın 13-də 25 ailə - 112 nəfər, dekabrın 18-də 22 ailə - 94 nəfər, 2024-cü il yanvarın 18-də 30 ailə - 127 nəfər, yanvarın 22-də 30 ailə - 106 nəfər, yanvarın 24-də 30 ailə - 125 nəfər, yanvarın 26-da 30 ailə - 104 nəfər, yanvarın 29-da 27 ailə - 115 nəfər, martın 15-də 35 ailə - 153 nəfər, martın 18-də 34 ailə - 123 nəfər, martın 27-də 35 ailə - 134 nəfər, martın 29-da 35 ailə - 138 nəfər, aprelin 22-də 39 ailə - 172 nəfər, aprelin 23-də 39 ailə - 150 nəfər, aprelin 26-da 39 ailə - 140 nəfər, aprelin 29-da 39 ailə - 153 nəfər köçürülmüşdür. Bütövlükdə isə, 2025-ci ilin noyabr ayına kimi Füzuli şəhərinə 822 ailənin, yəni 3132 nəfərin köçürülüb daimi məskunlaşdırılması təmin edilmişdir [14].

**Ağdama qayıdış.** Ağdam rayonuna qayıdış Sarıcalı, Kəngərli və Xıdırlı kəndlərinin bərpasından sonra başlanmışdır. İlk olaraq *Sarıcalı kəndinə* 2025-ci il aprelin 2-də 28 ailə - 110 nəfər, ardınca da aprelin 10-da 39 ailə - 153 nəfər, aprelin 21-də 34 ailə - 141 nəfər, aprelin 29-da 39 ailə - 169 nəfər, aprelin 30-da 35 ailə - 158 nəfər köçürülmüşdür. Köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. *Kəngərli kəndinə* ilk köç 2025-ci il mayın 20-də 50 ailə - 207 nəfərin yola salınması ilə başlanmışdır. Ardınca mayın 23-də 49 ailə - 232 nəfər, mayın 27-də 48 ailə - 206 nəfər, iyunun 18-də 40 ailə - 154 nəfər, iyunun 30-da 37 ailə - 153 nəfər, iyulun 17-də 43 ailə - 176 nəfər köçürülmüşdür. *Xıdırlı kəndinə* isə ilk köç 60 ailə - 235 nəfər olmaqla 2025-ci il iyulun 25-də başlanmışdır. Daha sonra iyulun 29-da 60 ailə - 236 nəfər, iyulun 31-də 58 ailə - 225 nəfər, avqustun 22-də 68 ailə-252 nəfər, avqustun 27-də 104 ailə-370 nəfər, oktyabrın 29-da 91 ailə 366 nəfər köçürülüb yerləşdirilmişdir [14].

**Şuşa şəhərinə qayıdış.** Şuşa şəhərinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrin köçürülüb yerləşdirilməsinə 2024-cü il mayın 9-da başlanmışdır. Həmin vaxt ilk mərhələdə 20 ailə - 88 nəfər Şuşa şəhərinə köçürülmüşdür. Ardınca mayın 14-də 38 ailə - 136 nəfər, mayın 25-də 32 ailə - 125 nəfər, mayın 30-da 15 ailə - 57 nəfər, iyunun 12-də 21 ailə - 85 nəfər, iyulun 30-da 21 ailə - 79 nəfər, sentyabrın 5-də 30 ailə - 102 nəfər, sentyabrın 7-də 27 ailə - 91 nəfər, oktyabrın 8-də 16 ailə - 60 nəfər, dekabrın 4-də 48 ailə - 164 nəfər, dekabrın 21-də 49 ailə - 191 nəfər, dekabrın 23-də 51 ailə - 208 nəfər köçürülmüşdür. 2025-ci il noyabr ayına kimi Şuşa şəhərinə 368 ailənin, yəni 1386 nəfərin daimi məskunlaşması təmin edilibdir [14].

**Cəbrayıla qayıdış.** Yenidən qurulan Cəbrayıl şəhərinə, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət ilk köç karvanı 2024-cü ildə sentyabrın 26-da Bakı şəhərinin Qaradağ rayonundan yola salınmışdır. İlkin olaraq Cəbrayıl şəhərinə 36 ailə - 117

nəfər köçürülüb yerləşdirilmişdir. Ardınca sentyabrın 28-də 41 ailə - 124 nəfər, noyabrın 7-də 30 ailə - 150 nəfər, noyabrın 29-da 40 ailə - 200 nəfər, dekabrın 2-də 34 ailə - 129 nəfər, dekabrın 25-də 49 ailə - 253 nəfər, 2025-ci il yanvarın 13-də 39 ailə - 165 nəfər, yanvarın 16-da 32 ailə - 153 nəfər, yanvarın 18-də 42 ailə - 206 nəfər, fevralın 17-də 42 ailə - 205 nəfər, fevralın 21-də 33 ailə - 183 nəfər, fevralın 19-da 37 ailə - 212 nəfər, fevralın 21-də 33 ailə - 183 nəfər, iyulun 22-də 53 ailə - 198 nəfər, iyulun 25-də 50 ailə - 199 nəfər, iyulun 30-da 44 ailə - 166 nəfər köçürülmüşdür. 2025-ci il noyabr ayına kimi Cəbrayıl şəhərinə 635 ailənin, yəni 2843 nəfərin daimi məskunlaşması təmin edilibdir [14].

**Xocalıya qayıdış.** Xocalı rayonuna məcburi köçkünlərin qayıdışı daha sürətlə həyata keçirilmişdir. Həm *Xocalı şəhərinə*, həm də rayonun *Ballıca, Xanyurdu, Təzəbinə, Badara, Şuşakənd, Daşbulaq, Seyidbəyli* kəndlərinə köçlər gerçəkləşdirilmişdir. İlk mərhələdə 2024-cü ildə mayın 29-da Xocalı şəhərinə 24 ailə - 88 nəfər, Ballıca kəndinə həmin il dekabrın 13-də 27 ailə - 152 nəfər, dekabrın 27-də 21 ailə - 119 nəfər, 2025-ci ildə yanvarın 15-də doğma yurduna yola salınmışdır. Daha sonra Ballıca kəndinə yanvarın 31-də 22 ailə - 94 nəfər, fevralın 24-də 22 ailə - 95 nəfər, martın 14-də 24 ailə - 98 nəfər, aprelin 21-də 21 ailə - 83 nəfər, aprelin 28-də Xocalı şəhərinə 33 ailə - 137 nəfər, aprelin 29-da Ballıca kəndinə 15 ailə - 68 nəfər, mayın 22-də Xocalı şəhərinə 1 ailə 5 nəfər, Ballıca kəndinə isə 8 ailə - 29 nəfər köçürülübdür. Yenidən iyulun 28-də Ballıca kəndinə 17 ailə - 62 nəfər, iyulun 14-də Təzəbinə kəndinə 28 ailə - 125 nəfər, Xanyurdu kəndinə 33 ailə - 122 nəfər, avqustun 11-də Xanyurdu kəndinə 19 ailə - 62 nəfər, sentyabrın 8-də 15 ailə - 46 nəfər köçürülübdür. Həmin il sentyabrın 11-də Şuşakəndə 15 ailə - 59 nəfər, sentyabrın 12-də Badara kəndinə 14 ailə - 55 nəfər, sentyabrın 13-də Seyidbəyli kəndinə 9 ailə - 30 nəfər, Daşbulaq kəndinə isə 13 ailə - 67 nəfər köçürülübdür. 2025-ci oktyabrın 8-də rayonun Xanyurdu kəndinə 18 ailə - 69 nəfər, oktyabrın 10-da rayonun Ballıca kəndinə 15 ailə - 53 nəfər, Təzəbinə kəndinə isə 28 ailə-126 nəfər, oktyabrın 14-də Şuşakənd kəndinə 27 ailə - 116 nəfər, Təzəbinə kəndinə isə 27 ailə - 117 nəfər, oktyabrın 23-də 12 ailə - 55 nəfər, oktyabrın 24-də Seyidbəyli kəndinə 18 ailə - 61 nəfər, Daşbulaq kəndinə isə 8 ailə - 24 nəfər, oktyabrın 28-də Ballıca kəndinə 13 ailə, - 51 nəfər, Təzəbinə kəndinə 17 ailə - 72 nəfər, Badara kəndinə isə 17 ailə - 62 nəfər köçürülmüşdür [14].

Xocalı rayonuna köç edənlər də respublikanın müxtəlif yerlərində ağır şəraitdə, başlıca olaraq yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu köçürülən hər bir ailəyə hər çür kommunal şəraiti olan mənzillərin açarları təqdim edilmişdir.

**Xocavəndə qayıdış**. 2025-ci il sentyabrın 11-dən etibarən Xocavənd rayonuna keçmiş məcburi köçkünlərin qayıdışı başlanmışdır və bu proses artan templə davam edir. Həmin gün

rayonun *Qırmızı Bazar qəsəbəsinə* 10 ailə - 39 nəfər, *Sos kəndinə* isə 10 ailə - 45 nəfər, Sentyabrın 12-də Hadrut qəsəbəsinə 10 ailə 41 nəfər köçürülübdür. Qırmızı Bazar qəsəbəsi və Sos kəndinə növbəti köç karvanı oktyabrın 28-də yola salınıbdır: Qırmızı Bazara 20 ailə - 71 nəfər, Sos kəndinə isə 10 ailə - 42 nəfər köçürülübdür [14].

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bərpa-quruculuq işləri çərçivəsində rayonun Hadrut qəsəbəsində "Hadrut" Qovşaq Yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilmişdir. Azərbaycan dövləti tərəfindən işğaldan azad edilmiş ərazilərdə dini-tarixi abidələrin əvvəlki görkəminə uyğun bərpası, həmçinin yeni məscidlərin inşası istiqamətində ardıcıl və məqsədyönlü işlər həyata keçirilir. Bu işlərin nəticəsində bölgənin dini irsi dirçəldilir, ibadət yerləri yenidən xalqın istifadəsinə verilir və milli-mənəvi dəyərlər bərpa olunur. Bu istiqamətdə görülən işlərin bariz nümunələrindən biri də dövlət başçısı tərəfindən açılışı edilmiş Xocavənd rayonunun Hadrut qəsəbəsində inşa olunmuş yeni məsciddir.

**Ağdərə rayonuna qayıdış.** Ağdərə rayonuna məcburi köçkünlərin qayıdışı öncə *Həsənriz,* bir ay sonra *Suqovuşan*, ardınca *Kolataq və Vəngli* kəndlərinə köçürülməsi ilə başlanmışdır. 2025-ci ildə Həsənriz kəndinə martın 3-də 25 ailə - 91 nəfər, martın 6-da 25 ailə - 75 nəfər, Suqovuşan kəndinə aprelin 5-də 53 ailə - 174 nəfər, aprelin 7-də 53 ailə - 185 nəfər, aprelin 9-da 54 ailə - 179 nəfər, Həsənriz kəndinə aprelin 11-də 20 ailə - 72 nəfər, aprelin 22-də 20 ailə - 68 nəfər, iyunun 24-də 40 ailə - 146 nəfər, iyulun 24-də 29 ailə - 114 nəfər, avqustun 15-də Kolatağ kəndinə 89 nəfərdən ibarət 26 ailə, Vəngli kəndinə 83 nəfərdən ibarət 22 ailə, sentyabrın 8-də 105 nəfərdən ibarət 29 ailə, sentyabrın 22-də Həsənriz kəndinə 29 ailə - 115 nəfər, oktyabrın 9-da Vəngli kəndinə 28 ailə - 112 nəfər, oktyabrın 29-da Həsənriz kəndinə 17 ailə - 83 nəfər köçürülüb yerləşdirilmişdir [14]. Yeni köçən sakinlərə mənzillərin açarlarının təqdim edilməsi mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri iştirak ediblər. Vəngli kəndində daimi yaşayış üçün köçürülən ailələrə fərdi yaşayış evləri verilmişdir. Bu köç edən ailələr uzun müddət ərzində respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmışdılar. 2025-ci il aprelin sonuna kimi Suqovuşan kəndinə 180 ailə - 592 nəfər köçürülüb məskunlaşdırılmışdır.

**Laçın rayonuna qayıdış.** Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış əslən Laçın rayonundan olan ailələrin *Laçın şəhərinə və rayonun Zabux və Sos*

*kəndlərinə* köçürülüb yerləşdirilməsinə 2023-cü il mayın 28-dən başlanmışdır. Həmin gün keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə ilk köçü yola düşmüşdür. Birinci mərhələdə şəhərə 20 ailə, yəni 97 nəfər köçürülmüşür. Laçına ilk köç karvanı Bakı şəhərinin Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu park 3" yaşayış kompleksindən yola salınmışdır. İlkin mərhələdə köçürülən ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda ən ağır şəraitdə yaşayanlar arasından seçilmişdir. Onlar Laçın şəhərində işğaldan əvvəl yaşadıqları və işğala son qoyulduqdan sonra dövlət başısının göstərişi əsasında aparılan təmir-bərpa işləri nəticəsində tamilə yenilənmiş və zəruri yaşayış şəraitinin yaradıldığı evlərdə məskunlaşdırılmışlar.

Daha sonra Laçın şəhərinə 2023-cü il iyunun 14-də 22 ailə - 72 nəfər, iyunun 19-da 13 ailə - 44 nəfər, iyunun 25-də 15 ailə - 53 nəfər, iyulun 13-də 23 ailə - 85 nəfər, iyulun 25-də 19 ailə - 89 nəfər, iyulun 28-də 16 ailə - 56 nəfər, iyulun 31-də 12 ailə - 53 nəfər, oktyabrın 16-da 25 ailə - 96 nəfər, oktyabrın 20-də 23 ailə - 83 nəfər, oktyabrın 30-da 20 ailə - 70 nəfər, noyabrın 14-də 10 ailə - 40 nəfər, noyabrın 22-də 21 ailə - 81 nəfər, noyabrın 29-da 17 ailə - 63 nəfər, dekabrın 14-də 20 ailə - 86 nəfər, dekabrın 28-də 25 ailə - 80 nəfər, 2024-cü il yanvarın 30-da 23 ailə - 72 nəfər, fevralın 28-də 20 ailə - 78 nəfər, martın 30-da 21 ailə - 68 nəfər, aprelin 30-da 21 ailə - 65 nəfər, 2024-cü il mayın 31-də 20 ailə - 68 nəfər, iyunun 28-də 21 ailə - 65 nəfər, iyulun 31-də 18 ailə - 60 nəfər, sentyabrın 11-də daha 18 ailə - 59 nəfər köçürülüb məskunlaşdırılmışdır. Bununla da Laçın şəhərində 570 ailənin, yəni 2090 nəfərin daimi məskunlaşması təmin edilmişdir [14].

Laçın ayonunun *Zabux kəndinə* ilk köç 2023-cü il avqustun 25-də gerçəkləşdirilmişdir. Həmin vaxt kəndə 20 ailə - 88 nəfər köçürülmüşdür. Onlar Bərdədən, Şirvandan və Mingəçevirdən Zabuxa qayıdan ailələr idilər. Bu ilk köçün ardınca noyabrın 16-da 25 ailə - 94 nəfər, noyabrın 18-də 25 ailə - 103 nəfər, noyabrın 20-də 25 ailə - 91 nəfər, noyabrın 23-də 25 ailə - 93 nəfər, dekabrın 15-də 25 ailə - 92 nəfər, dekabrın 22-də 30 ailə - 121 nəfər, dekabrın 25-də 27 ailə - 95 nəfər, 2024-cü il fevralın 28-də 4 ailə - 11 nəfər, martın 30-da Zabux kəndinə 4 ailə - 11 nəfər, aprelin 30-da rayonun Zabux kəndinə isə 2 ailə - 4 nəfər köçürülmüşdür. Bununla da Zabux kəndində 212 ailənin, yəni 803 nəfərin daimi məskunlaşması təmin edilmişdir [14].

Laçın rayonunun *Sus kəndinə* isə ilk dəfə 2024-cü ildə mayın 9-da 20 ailə - 75 nəfər, ardınca mayın 24-də 39 ailə - 140 nəfər köçürülmüşdür. Laçın şəhərinə 2024-cü il mayın 31-də 20 ailə - 68 nəfər, iyunun 28-də 21 ailə - 65 nəfər, iyulun 31-də 18 ailə - 60 nəfər, sentyabrın 11-də daha 18 ailə - 59 nəfər köçürülüb məskunlaşdırılmışdır. Bununla da Laçın şəhərində 570

ailənin, yəni 2090 nəfərin daimi məskunlaşması təmin edilmişdir. 2025-ci il sentyabrın 23-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Laçın rayonuna çatıb. Laçın şəhərinə yeni köçürülən ailələrə mənzillərinin açarlarının təqdimat mərasimi keçirilmişdir. Köçürülən ailələr vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşdırılmışdır. Bu mərhələdə Laçın şəhərinə daha 20 ailə - 86 nəfər köçürülmüşdür. Bundan əlavə, rayonun Bəylik kəndinə 2025-ci il mayın 29-da 41 ailə - 163 nəfər, mayın31-də 38 ailə - 153 nəfər köçürülmüşdür. Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planı çərçivəsində Bəylik kəndi müasir tərzdə yenidən inşa olunması 2025-ci il oktyabrın 27-də başa çatdırılmışdır [14].

**Kəlbəcərə qayıdış.** Kəlbəcər şəhərinə ilk köç karvanı 2025-ci il sentyabrın 15-də yola salınmışdır. Bu mərhələdə köçürülən 139 nəfərdən ibarət 32 ailəyə mənzillərin açarları təqdim edilib. Sentyabrın 20-də doğma yurduna yola salınan ikinci köç karvanı Kəlbəcər şəhərinə çatmışdır. Bu mərhələdə köçürülən 115 nəfərdən ibarət 29 ailəyə mənzillərin açarları təqdim edilmi.dir [14]. Kəlbəcər şəhərində daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzillər verilibdir.

**Nəticə.** Qarabağ və Şərqi Zəngəzura böyük qayıdış Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə şəxsi nəzarəti və rəhbərliyi altında gerçəkləşdirilir. Dövlət başçısı 5 il ərzində işğaldan azad olunmuş ərazilər üzrə 500-dən çox tədbirdə iştirak etmiş, yüzlərlə müxtəlif təyinatlı layihənin təməlini qoymuşdur. Prezident İlham Əliyev mühüm strateji əhəmiyyət kəsb edən Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanları, minlərlə kilometrlik yol-nəqliyyat infrastrukturu və sosial təyinatlı layihələr daxil olmaqla, çoxsaylı obyektlərin açılışını etmişdir.

Böyük Qayıdışın başlandığı 2022-ci ildən 2025-ci ilin noyabr ayına kimi işğaldan azad edilmiş 28 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlərin köçürülüb yerləşdirilməsi həyata keçirilmişdir. Hazırda Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilmiş ərazilərində, ümumilikdə, 50 mindən çox insan yaşayır. İnsanların köçürüldüyü bütün yaşayış məntəqələrində infrastruktur tamamilə yenidən qurulmuşdur. Geri qayıdan əhali müasir tələblərə cavab verən ev və mənzillərlə təmin olunmuşdur. Hər bir yaşayış məntəqəsində orta təhsil müəssisəsi, bağça, tibb məntəqəsi, icma mərkəzi yaradılmışdır. 2024-cü ildən Xankəndində Qarabağ Universiteti fəaliyyət göstərir. İnfrastrukturun bərpası ilə yanaşı əhalinin yeni yaşayış şəraitinə adaptasiyası və iqtisadi fəaliyyətə reinteqrasiyası, məşğulluq imkanlarının artırılması üçün məqsədyönlü işlər görülməkdədir.

**Ədəbiyyat**


1. Əliyev İ.H. Mingəçevirdə məcburi köçkünlər üçün salınmış qəsəbənin açılışı mərasimində nitqi, 8 iyun 2004-cü il // İnkişaf – məqsədimizdir. 3-cü kitab. Bakı, Azərnəşr, 2009, s.252-256
2. Azərbaycan Respublikasının Tarixi (2003-2016). 2-ci c., İlham Əliyev dövrü. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 716 s.
3. Prezident İlham Əliyevin Füzuli rayonunun Horadiz şəhərində məcburi köçkünlər üçün salınan yeni qəsəbədə Füzuli rayon ictimaiyyətinin nümayəndələri və məcburi köçkünlər ilə görüşdə çıxışı // https://president.az/az/articles/view/21663-12.11.2018
4. Komitə sədri: “Böyük qayıdış”ı təmin etmək üçün davamlı işlər aparılır” // https://report.az/daxili-siyaset/komite-sedri-boyuk-qayidis-i-temin-etmek-ucun-davamli-isler-aparilir - 14 aprel 2022
5. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // https://president.az/az/articles/view/47738 - 24 noyabr 2020
6. От гранатометов до Целей устойчивого развития. «Жизнь возвращается на освобожденные территории» https://caliber.az/ru/post/106972-10.09.2022
7. Böyük Qayıdış // https://president.az/az/greatreturn
8. Əsədova R.B. Qarabağa Böyük Qayıdışın başlanması: demoqrafik təhlil // Bakı, Cənubi Qafqaz yeni qlobal çağırışlar kontekstində. Beynəlxalq konfransın materialları. 3 may 2024-cü il, 300 s.; s.99-102
9. Qarabağın bərpasında xarici donorların dəstəyindən niyə istifadə olunmur?/ https://musavat.com/news/899420.html - 20.06.22
10. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı olub: Böyük Qayıdışa daha bir töhfə // https://corp.ady.az/az/media/xeberler/gundem/agdam-demir-yolu-ve-avtovagzal-kompleksinin-acilisi-olub-boyuk-qayidisa-daha-bir-tohfe -10.05.2025
11. Horadiz-Ağbənd dəmir yolu xəttinin layihələndirilməsinin 84 %-i tamamlanıb // https://internationalradio.az/az/news/90022352/horadiz-agbend-demir-yolu-xettinin-layihelendirilmesinin-84-i-tamamlanib (müraciət tarixi -12.10.2025)
12. “2024-cü ildə bu işlərə çox güclü təkan veriləcək” -BÖYÜK QAYIDIŞ // https://konkret.az/2024-cu-ilde-bu-islere-cox-guclu-tekan-verilecek-boyuk-qayidis - 11/01/2024 (müraciət tarixi -12.10.2025)

13. Qarabağa Böyük Qayıdış: Ağalı kəndinin ilk sakinləri yola salınıb // https://azertag.az/xeber/qarabaga_boyuk_qayidis_agali_kendinin_ilk_sakinleri_yola_salinib_video-2219783 - 19.07.2022 (müraciət tarixi -12.10.2025)
14. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Mətbuat xidmətinin saytında ( https://idp.gov.az/az/news/) yerləşdirilən rəsmi məlumatlar əsasında hesablanmışdır

## NEW SUCCESSES IN THE GREAT RETURN TO KARABAKH

**R.B. Asadova**
Azerbaijan University, Baku, Azerbaijan
Institute of History of ANAS, Baku, Azerbaijan

**Abstract:** Immediately after being elected President of the Republic of Azerbaijan, Ilham Aliyev took the necessary steps to resettle refugees and internally displaced persons from tent cities to developed settlements. Following the Great Victory in the Second Karabakh War, accelerated programs began to clear mines from liberated territories in Karabakh and Eastern Zangezur, build roads, provide water and electricity, construct settlements, and more. This article examines the achievements of the Great Return to Karabakh in the five years since the Great Victory.

**Keywords:** Dismantling tent cities, infrastructure projects in Karabakh and Eastern Zangezur, beginning of the Great Return, return to the village of Agali, the city of Fuzuli and other settlements, results of the first five years.